# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 205 (1333) 5 noyabr - 7 noyabr 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ


**(əvvəli ötən saylarımızda)**

**Mənzil fondunun istismarı və əhaliyə göstərilən xidmətin yaxşılaşdırılması məqsədilə şəhərin F.Əmirov küçəsində 3 saylı, A.Qardaşov küçəsi 11 saylı yaşayış binalarının 1956 kvm dam örtüyü əsaslı təmir edilmiş, C.Cabbarlı küçəsi 1, 3 saylı və Vidadi küçəsi 1, 2 saylı binaları içməli su ilə təmin edən su nasos qurğusu sökülərək yenidən tikilmiş, Bülbül küçəsi 3 saylı ünvanda yerləşən kommunal binanın həyətində** qaz xətti 159 mm-lik qaz xətti ilə əvəz edilmiş, Aşağı Tala kəndində müxtəlif diametrli borularla 794 metr uzunluğunda qaz xətti çəkilmişdir.

Rayonun yaşayış məntəqələrində enerji təminatının yaxşılaşdırılması məqsədi ilə 442 ədəd müxtəlif tipli yeni dayaqlar basdırılmış, 10 kv-luq 24.0 km, 0.4 kv-luq 9.4 km uzunluğunda hava elektrik verilişi xətləri, 221 ədəd 10/0,4 kv -luq transformator məntəqəsi əsaslı və cari təmir edilmiş, 787 ədəd yeni elektrik sayğacı quraşdırılmış, 22.7 km uzunluğunda SİP lil qatından təmizlənərək əhaliyə daha keyfiyyətli içməli suyun çatdırılması təmin edilmişdir. Bundan başqa, Yaponiya səfirliyinin maliyyə dəstəyi ilə Muxax və Qımır kəndlərində iki ədəd yeni artezian quyusu qazılaraq istifadəyə verilmişdir.

Dövlət Proqramının icrası olaraq rayonun Uzunqazmalar, Uzuntala, Yuxarı Çardaxlar, Ələsgər və Paşan kəndlərində modul tipli sutəmizləyici qurğuların tikintisi başa çatdırılmış, ümumilikdə 87 ədəd bulağın inşası və 18.2 km uzunluğunda



# DAHA BÖYÜK UĞURLARA İDDİALI ZAQATALA...



**müasir tipli sanitar qovşağı inşa edilmişdir.**

Yevlax-Zaqatala-Gürcüstan Respublikası Dövlət sərhədi magistral avtomobil yolunun 125-126-cı kilometrində Yuxarı Tala kəndi ərazisindən keçən yolun 1-ci dərəcəli yola keçirilməsi ilə əlaqədar Rayon İcra Hakimiyyəti tərəfindən daxili imkanlar hesabına 2 km uzunluğunda yolun 1,0 km hissəsinin genişləndirilməsi və yol kənarının abadlaşdırılması işlərinə başlanılmış, hazırda bu işlər davam etdirilir.

### *Xidmət sahələrinin fəaliyyəti diqqət mərkəzindədir*

Keçən dövr ərzində əhalinin təbii qazla təminatının yaxşılaşdırılması istiqamətində də müəyyən işlər görülmüş, rayonun şəhər, qəsəbə və kənd yaşayış məntəqələrində qaz xətlərində təmir işləri davam etdirilmişdir. Muxax kəndində 950 metr uzunluğunda 127 mm-lik kabel xətti çəkilmiş, 590 ədəd sayğac yenisi ilə əvəz edilmişdir.

Ötən dövr ərzində rayonun yaşayış məntəqələrində əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması sahəsində də işlər davam etdirilmişdir. Belə ki, Zaqatala şəhərində, Muxax, Qımır, Çobankol, Bazar, Yuxarı Tala, Dağlı, Muğanlı, Cimcimax və Üçüncü Tala kəndlərində yararsız vəziyyətdə olan su xətləri dəyişdirilmiş, xırda təmir işləri aparılmış, subartezian quyuları, kürəbəndlərin, tənzilmləyici qurğuların əsaslı və cari təmiri işləri aparılaraq əhalinin istifadəsinə verilmişdir. Şəhərin Sülh küçəsindəki 3 ədəd ikimərtəbəli yaşayış binasının su və kanalizasiya xətlərinin yenidənqurulması işləri aparılmış, sayğaclar quraşdırılmışdır.

Şəhərin və kəndlərin su xətlərində su sızmalarının qarşısı alınmış, müxtəlif ərazilərdə yararsız hala düşmüş su boruları dəyişdirilərək yeniləri ilə əvəz edilmiş, Sabunçu, Mazıx, Car və Meşləş su hövzələri müxtəlif diametrli borularla su xətlərinin çəkilişi aparılmışdır.

2016-cı ilin 9 ayı ərzində əhaliyə poçt və rabitə xidmətlərinin yaxşılaşdırılması sahəsində müvafiq işlər aparılmış, internet və multimediya xidmətləri genişləndirilmişdir. Məcburi köçkünlər üçün inşa edilmiş yeni yaşayış məhəlləsində 128 nömrə tutumlu, Qəbizdərə kəndində 64 nömrə tutumlu elektron ATS, Abaəli kəndində 16 nömrəlik mini elektron ATS və 24 portlu DSLAM avadanlığı, Makov və Yuxarı Çardaxlar kəndlərinin hər birində 48 portlu, Çobankol və Gözbarax kəndlərinin hər birində 24 portlu və Aşağı Çardaxlar kənd EATS-də 8 portlu DSLAM avadanlıqları quraşdırılmışdır. Rayonda telefon istifadəçilərinin sayı 571 nəfər artaraq 22868 nəfərə, genişzolaqlı internet istifadəçilərinin sayı 253 nəfər artaraq 10582 nəfərə çatmışdır.

### *Təhsil, səhiyyə, mədəniyyət və turizm yenilikləri*

Rayonda bütün sahələrdə olduğu kimi təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində də işlər görülmüş, məktəblərdə açıq dərslər keçirilmiş, bilik yarışları, müsabiqələr təşkil olunmuşdur. Rayonun ümumtəhsil məktəblərində IX-XI sinif şagirdləri arasında fənn olimpiadalarının rayon və zona mərhələləri keçirilmiş, fənn olimpiadalarının Respublika mərhələsində, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilmiş "Ən yaxşı təqdimat", Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmri ilə keçirilmiş "Ədəbiyyat biliciləri" və Təhsil Nazirliyi, Fövqaladə Hallar Nazirliyi və YUNİSEF-in birgə keçirdiyi "Təhsildə fəlakət riskinin azaldılması" müsabiqələrində rayonun yuxarı sinif şagirdləri yüksək nəticələr göstərərək I və II yerə layiq görülmüşlər.

**"Mən Azərbaycanın hər bir vətəndaşının prezidentiyəm. Bizim məqsəd və məramımız da hər bir vətəndaşımızın daha yaxşı yaşaması və daha yaxşı təmin olunmasıdır".**

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

2016-cı ildə rayonun tam orta təhsil müəsisələrini bitirən 1152 şagirddən 455 nəfəri ali məktəblərə qəbul imtahanlarında iştirak etmiş, onlardan 351 nəfəri ali məktəblərə qəbul olmuş, 26 nəfər 600-dən yuxarı, 44 nəfəri 500 dən yuxarı bal toplamışlar. Hesabat dövründə 2 nəfər məzun qızıl medala layiq görülmüşdür.

Əhaliyə səhiyyə xidmətinin göstərilməsi məqsədi ilə 2016-cı ilin 9 ayında Rayon Mərkəzi Xəstəxanasının həkimləri tərəfindən 108381 nəfər ambulator qəbul edilmiş, 50333 nəfərin evinə gedilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən cari ilin15 fevral tarixindən 15 may tarixinədək əhalinin kütləvi profilaktik müayinələri aparılmış, 73522 nəfər tibbi müayinədən keçirilərək 6914 nəfərə ambulator, 54 nəfər isə stasionar müalicəyə cəlb edilmişdir. Hesabat dövründə milli-mənəvi dəyərlərimizin qorunması, gənclərimizdə vətənpərvərlik hisslərinin artırılması məqsədilə müasir Azərbaycan tarixinin ən faciəli və eyni zamanda, xalqımızın azadlıq mübarizəsinin şanlı səhifələrindən olan 20 Yanvar faciəsinin 26-cı və Xocalı soyqırımının 24-cü ildönümü eləcədə, 31 mart-azərbaycanlıların soyqırımı günü ilə əlaqədar silsilə tədbirlər, anma mərasimləri keçirilmişdir.

**Rayonda 8 Mart Beynəlxalq Qadınlar günü, Novruz bayramı, Ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü, Zərifə xanım Əliyevanın doğum günü, 15 iyun Milli Qurtuluş günü, 26 iyun Silahlı qüvvələr günü, Heydər Əliyevin hakimiyyətə gəlişinin 47-ci ildönümü münasibəti ilə geniş bayram tədbirləri keçirilərək respublika və rayon incəsənət ustalarının iştirakı ilə konsert proqramları təşkil olunmuşdur. Avqust ayının 9-da Heydər Əliyev Fondunun təşkil etdiyi VIII Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində rayonun Heydər Əliyev parkında "Kiyev Virtuozları" kamera orkestrinin möhtəşəm konserti təşkil edilmişdir.**

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDZADƏ***